DOI: https://doi.org/10.36719/2706-6185/57/48-52

**Məhbubə Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
dissertant
https://orcid.org/0009-0009-4916-4982
pedagogmm57@gmsil.com

# İbtidai təhsildə müəllim-şagird münasibətlərinin pedaqoji xüsusiyyətləri

## Xülasə

İbtidai təhsil mərhələsində müəllim-şagird münasibətləri pedaqoji prosesin səmərəli təşkilində mühüm rol oynayan əsas amillərdən biridir. Bu münasibətlər pedaqoji ünsiyyət, qarşılıqlı hörmət, əməkdaşlıq və etimad prinsipləri əsasında formalaşır.

Müəllimin peşəkarlıq səviyyəsi, pedaqoji bacarıqları və şagirdyönümlü yanaşması şagirdlərin idrak fəaliyyətinin inkişafına, onların sosial münasibətlərinin formalaşmasına və şəxsiyyət kimi inkişafına mühüm təsir göstərir. İbtidai sinif müəllimi təlim prosesində şagirdlərin yaş və psixoloji xüsusiyyətlərini nəzərə almalı, onların fərdi qabiliyyət və maraqlarına uyğun inkişafetdirici təlim mühiti yaratmalıdır. Səmərəli pedaqoji ünsiyyət şagirdlərin özünəinamının artmasına, müstəqil düşünmə və yaradıcılıq bacarıqlarının inkişafına şərait yaradır. Eyni zamanda müəllimin innovativ təlim metodlarından və müasir təhsil texnologiyalarından istifadə etməsi təlim prosesinin keyfiyyətinin yüksəlməsinə və şagirdlərin təlim fəaliyyətində fəallığının artmasına səbəb olur.

Beləliklə, ibtidai təhsildə müəllim-şagird münasibətlərinin humanist və əməkdaşlıq prinsipləri əsasında qurulması şagirdlərin hərtərəfli inkişafının təmin edilməsində, onların sosial və intellektual potensialının reallaşdırılmasında mühüm pedaqoji əhəmiyyət kəsb edir.

***Açar sözlər:*** *təhsil, müəllim, şagird, ünsiyyət, peşəkarlıq, səriştə, inkişaf, motivasiya, yaradıcılıq, əməkdaşlıq*

**Mahbuba Mammadova**
Azerbaijan State Pedagogical University
PhD student
https://orcid.org/0009-0009-4916-4982
pedagogmm57@gmsil.com

# Pedagogical Features of Teacher-Student Relationships in Primary Education

## Abstract

Teacher-student relationships in primary education constitute one of the key factors that play a significant role in the effective organization of the pedagogical process. These relationships are formed based on pedagogical communication, mutual respect, cooperation, and trust.

The teacher's level of professionalism, pedagogical skills, and student-centered approach have a considerable impact on the development of students' cognitive activities, the formation of their social relationships, and their overall personal growth. A primary school teacher must take into account students' age and psychological characteristics during the learning process and create a developmental learning environment tailored to their individual abilities and interests. Effective pedagogical communication fosters students' self-confidence and facilitates the development of independent thinking and creative skills. At the same time, the teacher's use of innovative teaching methods and modern educational technologies enhances the quality of the educational process and increases students' engagement in learning activities.


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Thus, establishing teacher-student relationships in primary education on the principles of humanism and collaboration is of vital pedagogical importance for ensuring the comprehensive development of students and realizing their social and intellectual potential.
***Keywords:*** *education, teacher, student, communication, professionalism, competence, development, motivation, creativity, collaboration*

## Giriş

İbtidai təhsildə müəllim-şagird münasibətləri təlim-tərbiyə prosesinin əsas dayaqlarından biri kimi çıxış edir və uşaqların həm intellektual, həm də sosial inkişafında böyük rol oynayır. Bu münasibətlər qarşılıqlı hörmət, etimad və səmərəli ünsiyyət prinsiplərinə əsaslanaraq formalaşır və şagirdlərin təhsil prosesinə aktiv adaptasiyasını təmin edir.

Peşəkarlıq və pedaqoji səriştə ibtidai sinif müəlliminin fəaliyyətinin əsas keyfiyyət göstəriciləridir. Bu keyfiyyətlər müəllimin təlim-tərbiyə prosesini elmi əsaslar üzərində qurmasına, şagirdlərin idrak fəaliyyətinin fəallaşdırılmasına və onların şəxsiyyət kimi hərtərəfli inkişafına mühüm təsir göstərir. İbtidai təhsil mərhələsi uşaqların dünyagörüşünün, sosial münasibətlərinin və davranış vərdişlərinin formalaşdığı ilkin və həlledici dövr hesab olunur. Məhz bu mərhələdə müəllim və şagird arasında qurulan münasibətlər pedaqoji prosesin keyfiyyətini müəyyən edən əsas amillərdən biri kimi çıxış edir. Müəllimin peşəkar fəaliyyəti yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmır; o, həm də şagirdyönümlü və nəticəyönümlü təlim mühitinin yaradılmasını, pedaqoji prosesin məqsədyönlü və sistemli şəkildə təşkilini təmin edir. Bu baxımdan müəllim-şagird münasibətləri ibtidai təhsil mühitində şagirdlərin sosiallaşması, müstəqil düşüncə qabiliyyətinin inkişafı və mənəvi keyfiyyətlərinin formalaşması üçün mühüm pedaqoji zəmin yaradır.

**Tədqiqat**

Azərbaycan Respublikasında təhsilin modernləşdirilməsi istiqamətində qəbul edilmiş strateji sənədlərdə də müəllimin peşəkar inkişafına xüsusi diqqət yetirilir. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda təhsilin əsas istiqamətlərindən biri səriştə əsaslı və fərdiləşdirilmiş təhsil məzmununun formalaşdırılması kimi müəyyən edilmişdir. Bu yanaşma təlim prosesində şagirdlərin fərdi xüsusiyyətlərinin, maraq və qabiliyyətlərinin nəzərə alınmasını, onların inkişaf səviyyəsinə uyğun təhsil mühitinin yaradılmasını nəzərdə tutur. Strategiyada erkən təhsil mərhələsində tətbiq olunan kurikulumların və təhsil standartlarının şagirdlərin fərdi inkişaf xüsusiyyətlərinə uyğun şəkildə hazırlanması prioritet vəzifələrdən biri kimi qeyd olunur (2013).

Bu baxımdan ibtidai sinif müəllimlərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, onların müasir pedaqoji yanaşmaları və innovativ təlim texnologiyalarını mənimsəməsi təhsil prosesinin səmərəliliyinin artırılmasında mühüm rol oynayır. Müəllimin pedaqoji bacarıqları, metodik hazırlığı və kommunikativ səriştəsi şagirdlərin öyrənmə motivasiyasının gücləndirilməsinə, onların təlim fəaliyyətində fəal iştirakına və ümumi təhsil nailiyyətlərinin yüksəlməsinə əlverişli şərait yaradır. Bu səbəbdən müasir təhsil mühitində ibtidai sinif müəllimi yalnız bilik ötürən deyil, həm də şagirdlərin inkişafını istiqamətləndirən, onların potensial imkanlarını üzə çıxaran və təlim prosesini elmi-pedaqoji prinsiplər əsasında təşkil edən aparıcı pedaqoji fiqur kimi çıxış edir.

İbtidai sinif müəlliminin peşəkarlığı onun pedaqoji fəaliyyəti elmi-pedaqoji prinsiplər əsasında planlaşdırması və təlim prosesində müxtəlif metod və vasitələrdən məqsədyönlü şəkildə istifadə etməsi ilə xarakterizə olunur. Müəllim şagirdlərin yaş xüsusiyyətlərini, psixoloji inkişaf səviyyəsini və fərdi öyrənmə xüsusiyyətlərini nəzərə alaraq tədris prosesini təşkil etməli, hər bir şagirdin idrak imkanlarının reallaşmasına şərait yaratmalıdır. Bu yanaşma təlim fəaliyyətinin səmərəliliyini artırmaqla yanaşı, şagirdlərin fəallığını, müstəqil düşünmə bacarığını və yaradıcılıq potensialını inkişaf etdirir. Peşəkarlıq və səriştə müəllim fəaliyyətində bir-biri ilə sıx bağlı anlayışlar olub, pedaqoji prosesin keyfiyyətli təşkilində qarşılıqlı şəkildə təzahür edir.

Pedaqoji peşəkarlıq yalnız uzunmüddətli təcrübə və ya fitri qabiliyyətlə məhdudlaşmır. Bu keyfiyyət müəllimin öz üzərində sistemli şəkildə işləməsi, pedaqoji və psixoloji biliklərini daim zənginləşdirməsi, müasir təhsil texnologiyalarını mənimsəməsi və yaradıcı pedaqoji yanaşmalar tətbiq etməsi nəticəsində formalaşır. Müasir təhsil mühitində innovativ metodların, informasiya-

kommunikasiya texnologiyalarının və interaktiv təlim üsullarının tətbiqi müəllimin peşəkar inkişafının mühüm istiqamətlərindən biri hesab olunur. Bu proses müəllimin təlim fəaliyyətində yenilikçi yanaşmalar tətbiq etməsinə və tədris prosesini daha effektiv şəkildə təşkil etməsinə imkan yaradır (Məmmədov, 2024).

İbtidai sinif müəllimi təlim prosesini təşkil edərkən şagirdlərin idraki, emosional, sosial və yaradıcı inkişaf xüsusiyyətlərini nəzərə almalı, onların fərdi qabiliyyət və maraqlarının inkişafına yönəlmiş pedaqoji mühit formalaşdırmalıdır. Bu mühit şagirdlərin təlim prosesində fəal iştirakını təmin etməklə yanaşı, onların öz bilik və bacarıqlarını sərbəst şəkildə nümayiş etdirməsinə imkan yaradır (Həsənova, 2022).

Müəllim öyrənmə prosesinin psixoloji və pedaqoji mexanizmlərini nəzərə alaraq, motivasiya amillərinin və öyrənmə vərdişlərinin şagirdlərin nailiyyətlərinə təsirini düzgün qiymətləndirməli və buna uyğun təlim strategiyalarından istifadə etməlidir. Bu yanaşma şagirdlərin təlim fəaliyyətinin səmərəliliyini artırmaqla yanaşı, onların şəxsiyyət kimi hərtərəfli inkişafına da mühüm töhfə verir.

İbtidai təhsil mərhələsində müəllim-şagird münasibətlərinin formalaşmasında pedaqoji ünsiyyət aparıcı rol oynayır. Pedaqoji ünsiyyət təlim və tərbiyə prosesinin mühüm komponentlərindən biri olmaqla, müəllim və şagird arasında qarşılıqlı anlaşmanın, etimadın və əməkdaşlığın yaranmasına xidmət edir. Bu ünsiyyət forması yalnız informasiyanın ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda şagirdlərin emosional və sosial inkişafına təsir edən mühüm pedaqoji vasitə kimi çıxış edir. Səmərəli təşkil olunmuş pedaqoji ünsiyyət şagirdlərdə özünəinamın möhkəmlənməsinə, müstəqil düşünmə bacarıqlarının inkişafına və yaradıcılıq potensialının üzə çıxmasına əlverişli şərait yaradır (Quliyev, 2023).

Şagirdyönümlü təlim mühitinin formalaşdırılması ibtidai sinif müəllimindən yüksək pedaqoji səriştə və peşəkar yanaşma tələb edir (Həsənova, 2022). Müəllim sinif mühitində inkişafetdirici və stimullaşdırıcı şərait yaratmalı, şagirdlərin maraq və ehtiyaclarını nəzərə alaraq onların fəal təlim fəaliyyətinə cəlb olunmasını təmin etməlidir. Bu məqsədlə müəllim şagirdlərin sərbəst fikir ifadə etməsi, müstəqil qərar qəbul etməsi və yaradıcı fəaliyyət göstərməsi üçün uyğun imkanlar yaratmalıdır. Belə pedaqoji mühitdə şagirdlər müşahidə, araşdırma və tədqiqat yönümlü fəaliyyətlər vasitəsilə bilik əldə edir, həm müəllimlə, həm də həmyaşıdları ilə əməkdaşlıq şəraitində öyrənmə prosesində iştirak edirlər (Hüseynova, 2022).

Müəllim-şagird münasibətlərinin səmərəli qurulmasında sinifdə formalaşdırılan psixo-pedaqoji mühit də xüsusi əhəmiyyət daşıyır. Müsbət emosional atmosferin yaradılması şagirdlərin özlərini təhlükəsiz və rahat hiss etməsinə, sosial münasibətlərin inkişafına və təlim fəaliyyətinə marağın artmasına şərait yaradır. Qarşılıqlı hörmət, etimad və əməkdaşlıq prinsipləri üzərində qurulan münasibətlər şagirdlərin intellektual və sosial inkişafını stimullaşdırmaqla yanaşı, onların şəxsiyyət kimi formalaşmasına da müsbət təsir göstərir. Belə mühitdə şagirdlər daha fəal, təşəbbüskar və yaradıcı mövqe nümayiş etdirir, bu da təlim prosesinin ümumi səmərəliliyinin yüksəlməsinə səbəb olur.

Humanist pedaqogikanın nümayəndələrindən olan amerikalı psixoloq Karl Rocersin yanaşmasına görə, müəllim təlim prosesində yalnız bilik ötürən şəxs kimi deyil, həm də öyrənmə prosesini təşkil edən və asanlaşdıran fasilitator kimi çıxış edir. Bu yanaşmada müəllimin əsas vəzifəsi şagirdlərin sərbəst fikir ifadə etməsi üçün əlverişli mühit yaratmaq, onların fərdi təşəbbüslərini dəstəkləmək və öyrənmə prosesinə marağını stimullaşdırmaqdan ibarətdir (Abdinova, 2017).

Müəllimin şagirdlərin nailiyyətlərinə diqqət yetirməsi, onların uğurlarını qiymətləndirməsi və müsbət motivasiya yaratması şagirdlərin təlim fəaliyyətinə daha fəal qoşulmasına, özünəinam və məsuliyyət hissinin formalaşmasına mühüm təsir göstərir. Bu baxımdan humanist pedaqoji yanaşma şagirdlərin şəxsi inkişafının və yaradıcılıq potensialının üzə çıxarılmasına xidmət edir (Abbasov və b., 2023).

Səmərəli pedaqoji ünsiyyətin qurulması müəyyən pedaqoji prinsiplərə əsaslanır. Bu prinsiplər sırasında fərdi yanaşma, empatiya, qarşılıqlı hörmət və refleksiya xüsusi əhəmiyyət kəsb edir. Müəllim hər bir şagirdin fərdi xüsusiyyətlərini, emosional vəziyyətini və inkişaf səviyyəsini nəzərə alaraq təlim prosesini təşkil etməli, onların hiss və ehtiyaclarını düzgün qiymətləndirməlidir. Empatik münasibət şagirdlərlə səmimi və etibarlı əlaqələrin formalaşmasına şərait yaradır, refleksiya isə

müəllimə şagirdlərin fəaliyyətini təhlil etməyə və zəruri hallarda onlara pedaqoji dəstək göstərməyə imkan verir. Belə yanaşma müəllim-şagird münasibətlərinin konstruktiv və sağlam müstəvidə inkişafını təmin edir (Bayramova, 2025).

İbtidai təhsil mərhələsində müəllim-şagird münasibətlərinin səmərəliliyinə təsir göstərən mühüm amillərdən biri də valideyn-məktəb əməkdaşlığıdır (Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2013). Müəllim və valideynlər arasında qurulan sistemli və qarşılıqlı etimada əsaslanan əməkdaşlıq şagirdin təlim və tərbiyə prosesinin daha səmərəli təşkilinə imkan yaradır. Valideynlərlə müntəzəm informasiya mübadiləsi şagirdin inkişaf dinamikasının izlənilməsinə, onun davranış xüsusiyyətlərinin və sosial münasibətlərinin daha dolğun qiymətləndirilməsinə şərait yaradır. Eyni zamanda belə əməkdaşlıq müəllim və valideynlərin birgə fəaliyyətini gücləndirərək şagirdin şəxsiyyət kimi formalaşmasına və təlim nailiyyətlərinin yüksəlməsinə müsbət təsir göstərir.

Beləliklə, ibtidai təhsil mərhələsində müəllim-şagird münasibətləri pedaqoji prosesin mühüm və ayrılmaz tərkib hissəsi kimi çıxış edir. Bu münasibətlərin səmərəli qurulması təlim və tərbiyə fəaliyyətinin keyfiyyətinə, şagirdlərin idraki fəallığına və onların sosial inkişafına birbaşa təsir göstərir. Müəllimin peşəkarlıq səviyyəsi, pedaqoji ünsiyyət bacarıqları və təlim prosesinə yaradıcı yanaşması şagirdlərin intellektual potensialının üzə çıxarılmasına, onların sosial bacarıqlarının formalaşmasına və şəxsiyyət kimi inkişafına mühüm töhfə verir (İlyasov, 2018).

Müasir təhsil mühitində müəllimin rolu yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmır. O, eyni zamanda şagirdlərin inkişaf prosesini istiqamətləndirən, onların müstəqil düşünmə və yaradıcılıq qabiliyyətlərini stimullaşdıran pedaqoji rəhbər və təşkilatçı kimi çıxış edir. Bu baxımdan müəllimin pedaqoji fəaliyyəti şagirdyönümlü və inkişafyönümlü təlim mühitinin yaradılmasına yönəlir (Əliyev, 2023).

Belə mühitdə şagirdlər fəal öyrənmə fəaliyyətinə cəlb olunur, öz bilik və bacarıqlarını sərbəst şəkildə inkişaf etdirmək imkanı əldə edirlər. Nəticə etibarilə, müəllim-şagird münasibətlərinin humanist və əməkdaşlıq prinsipləri əsasında qurulması ibtidai təhsildə səmərəli pedaqoji prosesin təmin edilməsinin əsas şərtlərindən biri kimi qiymətləndirilə bilər (Məmmədova, 2025).

## Nəticə

İbtidai təhsildə müəllim-şagird münasibətləri pedaqoji prosesin səmərəliliyini müəyyən edən əsas amillərdən biri kimi çıxış edir. Tədqiqatlar göstərir ki, bu münasibətlərin qarşılıqlı hörmət, etimad və emosional yaxınlıq prinsipləri üzərində qurulması uşaqların təlim motivasiyasının yüksəlməsinə, dərsə marağının artmasına və müsbət davranış modellərinin formalaşmasına şərait yaradır. Pedaqoji nöqteyi-nəzərdən effektiv müəllim-şagird münasibətləri uşaqların sosial bacarıqlarının inkişafını dəstəkləyir, onların özünüifadə və özünüqiymətləndirmə qabiliyyətlərini gücləndirir. İbtidai sinifdə fərdi yanaşmanın tətbiqi, empatiya və uşaqların psixoloji xüsusiyyətlərinin nəzərə alınması, həmçinin onların fərdi inkişaf potensialının maksimal şəkildə reallaşdırılmasına imkan verir.

Nəticə etibarilə, ibtidai təhsildə müəllim-şagird münasibətləri yalnız bilik ötürülməsi funksiyasını daşımır, eyni zamanda uşaqların emosional, sosial və mənəvi inkişafını təmin edən əsas pedaqoji komponent kimi önə çıxır. Müəllimlərin qarşılıqlı hörmət, empatiya və fərdi yanaşma prinsiplərinə riayət etməsi təlim-tərbiyə prosesinin səmərəliliyinin artırılmasında həlledici əhəmiyyət kəsb edir.

## Ədəbiyyat

1. Abbasov, Ə., Cəbrayılov, İ., & İbadova, B. (2023). *Şagird nailiyyətlərinin qiymətləndirilməsinin pedaqoji əsasları*. CN Poliqrafiya, 200.
2. Abdinova, N. C. (2017). *İbtidai təhsil pedaqogikası: İbtidai siniflərdə təlimin optimallaşdırılması şəraitində şagird şəxsiyyətinin inkişafı*. ADPU nəşriyyatı, 300.
3. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2013). *Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası*. Təhsil Nazirliyi, 60.
4. Bayramova, F. M. (2025). Müəllim hazırlığında pedaqoji təcrübənin əhəmiyyəti. *Progress in Science*, (*9*), 85–98.

5. Əliyev, M. (2023). *Təhsil siyasətinin inkişafı və müəllim peşəkarlığı problemləri*. Elm və Təhsil, 260.
6. Həsənova, A. (2022). *İbtidai sinif müəlliminin pedaqoji səriştəsi və uğurlu təlim strategiyaları*. Təhsil Nəşriyyatı. 200.
7. Hüseynova, N. (2022). *Şagird motivasiyası və yaradıcı təlim metodları*. Elm və Təhsil Nəşriyyatı, 220.
8. İlyasov, M. İ. (2018). *Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri*. Elm və Təhsil, 208.
9. Quliyev, T. (2023). *Təlim mühitinin təşkili: İbtidai təhsil yanaşmaları*. Azərbaycan Pedaqoji Araşdırmalar, 220.
10. Məmmədov, R. (2024). *Müəllim–şagird münasibətlərinin psixopedaqogikası*. Təhsil Elmi Kitablar, 240.
11. Məmmədova, Y. (2025). *Məktəbəqədər və ibtidai təhsil: Seçilmiş elmi məqalələr*. Təhsil Elmi Metodiki Nəşriyyat, 250.
12. Rüstəmov, F. A. (2024). *Müasir pedaqoji yanaşmalar və təlim texnologiyaları*. Təhsil Jurnalı Nəşriyyatı, 280.
13. Verdiyeva, M. (2024). 21-ci əsr Azərbaycanında müəllim hazırlığı, problemlər və həll yolları. *Education Journal*, *13*(3).

Daxil oldu: 24.11.2025
Qəbul edildi: 01.02.2026